Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Gənc nəslin milli mənlik şüurunun inkişaf etdirilməsi və vətənpərvərlik hisslərinin tərbiyəsi**

# "Azərbaycan xalqının mənliyi var, milli qüruru var"

## Hər bir vətəndaşın milli vətənpərvərlik ideyalarında ən önəmli yerlərdən birini müasir nəsli milli vətənpərvərlik ruhunda tərbiyə etmək məsələsi tutmalıdır



**Azərbaycan vətəndaşı öz vətəni, torpağı, xalqı, milli-mənəvi dəyərlərilə qürur duymalı, hər zaman harada olmasından asılı olmayaraq, onu yaşatmalıdır. Bu səbəbdən də gənclərimizi milli-mənəvi dəyərlərimizə hörmət ruhunda tərbiyə etmək əsas vəzifəmiz olmalıdır. Milli mənliyin əsasını insanın hansı millətə, tarixə, mədəniyyətə, düşüncə tərzinə, ruhuna mənsub olması təşkil edir.**

Milli-mənlik şüuru vəzifəsindən, tutduğu mövqeyindən asılı olmayaraq, hər bir Azərbaycan vətəndaşında olmalıdır. Milli-mənlik şüurunu dərk etmək üçün tariximizi, mədəniyyətimizi, adətlərimizi, ailə münasibətlərimizi, musiqi tariximizi və s. mütləq dərk etməliyik. Azərbaycan xalqı müstəqil dövlət kimi formalaşana qədər, bir çox dövlətlərin əsarəti altında qalmış və onlara aid mədəniyyəti, milli ideologiyanı müəyyən mənada mənimsəmişdir. Lakin azərbaycançılıq ideyaları sovet dövründə müəyyən təzyiqlərə məruz qalsa da, Azərbaycan xalqı öz mənəvi dəyərlərini qoruya bilib. Hər bir vətəndaş milli şüurun formalaşdırılmasını özünün ideoloji fəaliyyətinin başlıca istiqaməti saymalıdır. Milli şüur vətənə məhəbbətdən qaynaqlanır. Ulu öndər Heydər Əliyev deyirdi: "O vaxt Azərbaycan gəncləri, elmi vətənpərvərlik şüuru ilə yaşayan insanlar Azərbaycana qarşı ədalətsizliyə etiraz əlaməti olaraq meydanlara çıxdılar, böyük mitinqlər keçirildi. 20 Yanvar hadisələri Azərbaycan xalqının milli şüurunun daha da yüksəldiyini göstərdi. Eyni zamanda bu hadisələr milli hərəkatın, milli şüurun imperiya qüvvələri tərəfindən boğulduğunu göstərdi. Ancaq Azərbaycan xalqı sübut etdi ki, onun mənliyi var, milli qüruru var". Bu sözləri rəhbər tutaraq xüsusilə gənclərimizin milli vətənpərvərlik ideyalarında ən önəmli yerlərdən birini müasir nəsli milli vətənpərvərlik ruhunda tərbiyə etmək məsələsi tutmalıdır. Gənclərimiz bizim tariximizi yaxşı bilməlidir, keçmişi yaxşı bilməlidir, dilimizi yaxşı bilməlidir, milli dəyərlərimizi də yaxşı bilməlidir. Milli dəyərlərimizi, milli ənənələrimizi yaxşı bilməyən, tarixi yaxşı bilməyən gənc vətənpərvər ola bilməz. Hər bir gənc vətənpərvər olmalıdır. Vətənpərvərlik, sadəcə, orduda xidmət deyil, vətənə sadiq olmaq, vətəni sevmək, torpağa bağlı olmaq - budur vətənpərvərlik. Dövlətçiliyimizin möhkəmlənməsi gənclərin bir şəxsiyyət kimi formalaşmasından - onların milli ruhda tərbiyəsindən çox asılıdır. Milli ruh, hər şeydən öncə - vətənpərvərlik ruhudur. Ulu öndər deyirdi: "Hər bir vətəndaş vətənpərvər olmalıdır. Əgər öz vətənini, torpağını, xalqını sevməsən, öz xalqının mənəvi dəyərlərinə sadiq olmasan, şübhəsiz ki, başqa şeyləri də qiymətləndirə bilməzsən. İndi bizim əsas vəzifəmiz gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş ruhunu qaldırmaqdır. Vətəni, torpağı müdafiə etmək hər bir gənc üçün müqəddəs vəzifə olmalıdır". Sevindirici haldır ki, bu gün dövlətimiz gənclərin milli vətənpərvərlik, hərbi vətənpərvərlik problemlərini daim diqqətdə saxlayır. Hərbi vətənpərvərliyi milli vətənpərvərliyin zirvəsi hesab edən dövlətimiz gəncləri hərbi xidmətə hazırlamağa, orduda qulluq edən gənclərə qayğı göstərməyə, onların fiziki və mənəvi, hərbi-texniki hazırlığını yüksəltməyə xüsusi əhəmiyyət verir. Ümummilli lider Heydər Əliyev gənclər qarşısında çıxışlarının birində qeyd demişdi: "Azərbaycanın suverenliyi hər bir azərbaycanlı vətəndaş üçün ən müqəddəs məqsəddir, ən müqəddəs vəzifədir. Belə olan halda biz öz taleyimizin sahibi kimi vətənimizi, torpaqlarımızı öz gücümüzlə qorumalıyıq. Bunu xalq, bizim gənclər, ordu sıralarındakı vətən oğulları etməlidirlər. Ona görə orta məktəblərdə bir tərəfdən hərbi tədrisə, gənclərin fiziki hazırlığına ciddi fikir verilməlidir, digər tərəfdən isə gənclərdə vətənpərvərlik hissini yüksəltmək, vətəni qorumağa hazır olmaq ruhunda tərbiyə etmək lazımdır". Müstəqillik dönəmindən bu yana Azərbaycana dövləti gənclərin vətənpərvərlik tərbiyəsinə böyük önəm verir. Gənclərin dünya sivilizasiyasının tərkib hissəsinə çevrilməsi üçün çox işlər görülür. Bu gün dövlət gənclər siyasətinin geniş miqyasda həyata keçirilməsi üçün bir sıra strukturlar təsis edilib. Gənclər və İdman Nazirliyi yaradılıb, mütəmadi olaraq gənclər forumları keçirilir. Fevralın 2-si Gənclər Günü elan olunub. Bu gün gənclərin təşkilatlanması, vətənpərvərlik hisslərinin gücləndirilməsi həyati əhəmiyyət daşıyır. Çünki Azərbaycanın 20 faizdən çox ərazisi işğal altındadır. Dövlət başçısı İlham Əliyev də 2003-cü ildə prezident seçildikdən sonra Ulu öndərin bu siyasətinə sadiq qalaraq, bu kursu layiqli formada davam etdirir. "Azərbaycan gəncliyi 2005-2009-cu illərdə" Dövlət Proqramı, "Azərbaycan gəncliyi 2011-2015-ci illərdə" Dövlət Proqramı hazırlanıb tətbiq edildi. Bu proqramların özəyində gənclər arasında vətənpərvərlik təbliğatının gücləndirilməsi durur. Ölkə başçısı tərəfindən rayon və şəhərlərimizdə 30-a yaxın gənclər mərkəzi açılıb. Həmin mərkəzlərdə vətənpərvərliklə bağlı xüsusi klublar və guşələr yaradılıb. 2011-ci ildə Azərbaycanda Gənclər Fondunun yaradılması, 2012-ci ildə isə həmin fondun statusunun artırılaraq Prezident yanında Gənclər Fondu kimi fəaliyyət göstərməsi heç də təsadüfi deyil. Artıq bir neçə ildir ki, Gənclər Fondu tərəfindən dəstək verilən layihələrin sayı durmadan artır. Beləliklə, milli şüur, öz millətini tanımaq, sevmək, onun bayrağına, gerbinə, himninə hörmətlə yanaşmaq hissləri ailədən formalaşır. Ailədə valideyn bu yöndə düzgün mövqedə olarsa, təbii ki, həmin ailədə böyüyən uşaq da bir o qədər vətənpərvər olar. İnsan həm də öz üzərində çalışmalı, sağlam bilgilərə malik olmalıdır. Ailə ilə yanaşı, özünü də məsuliyyətli olmağı mütləqdir. İndiki gənclər elə bir kütlədir ki, onlara təzyiq etmək, yaxud da nəyisə başa salmaq çox çətin məsələdir. Bu səbəbdən də gəncləri uşaqlıq dövründən başa salaraq tərbiyələrini düzgün istiqamətə yönəltmək lazımdır. Uşaq yaşlarında sərbəst düşüncə tərzində yanlışlıqlar olmasın deyə, təbii ki, tərbiyədə diqqətli olmaq mütləqdir. Çalışıb uşaqlara çox qadağalar qoymamaq daha yaxşı olar. Çünki nəyi daha çox qadağan edərsənsə, uşaqda ona meyl daha artıq olacaq. Xüsusən yeniyetmələrə sərbəstlik verilməlidir. Yeniyetmələr elə bir kateqoriyadır ki onlar özlərini dünyanın mərkəzi hesab edir. Onların sağlam formalaşması bizim sağlamlığımız, ölkənin sağlamlığı deməkdir. Gənclər özünə əmin olduqda, iradəsi düzgün formalaşdıqda nə istədiyini, harda yaşadığını bilir və nə üçün çalışdığını çox gözəl anlayır. Ailədə yaxşı böyüyən və gözəl tərbiyə alanuşaq mütləq həm savadlı, bilikli olacaq, həm də Vətənə, xalqa gərəkli bir övlad kimi yetişəcək. Gözəl əxlaqlı və tərbiyəli insanın milli mənlik şüuru da, mədəni səviyyəsi də yüksək olur. Belə insanlar, digərlərindən fərqli olaraq, doğulduğu torpağın, vətəndaşı olduğu ölkənin təəssübünü daha çox çəkir. Onlar doğma yurd üçün, təmsil etdiyi xalqın xoşbəxtliyi üçün canını belə əsirgəmir. Xalqının tarixini, dilini, mədəniyyətini bilməyən insan milli mənlik şüuruna malik deyil. Gənc nəslin milli mənlik şüurunun inkişaf, vətənpərvərlik hisslərinin tərbiyəsi məsələsi bu gün dövlət siyasətinin əsas prioritetlərindən biri kimi diqqət çəkir. Humanist ideyalara xidmət edən təhsil sistemi insani dəyərlərin böyük əhəmiyyət kəsb etməsi, vətəndaş tərbiyəsi, insan azadlığına və hüquqlarına hörmət, ətraf mühitə, vətənə, ailəyə məhəbbət, milli mədəniyyətin inkişafı, milli adət-ənənələrə hörmət və ehtiram göstərilməsi əsasında təşəkkül tapır. Tərbiyənin əsası ailədə qoyulur. Sonra bu proses məktəbəqədər tərbiyə müəssisələrində davam etdirilir. Bağçalar və məktəbəqədər tərbiyə müəssisələri uşaqların və körpələrin gələcək inkişafında əvəzedilməz rol oynayır. Pedaqoqların gəldiyi nəticələr onu deməyə əsas verir ki, məktəbəqədər tərbiyə müəssisələrində və orta məktəblərdə ölkənin tarixinin öyrənilməsi Milli Qəhrəmanlarla görüşlərin keçirilməsi uşaqlarda mənəvi-əxlaqi keyfiyyətlərin, vətənə məhəbbət hisslərinin formalaşmasına müsbət təsir göstərir. Orta məktəb proqramı çərçivəsində şagirdlərin muzeylərlə tanışlığı, müxtəlif səpkili ekskursiyaların təşkil edilməsi bu baxımdan çox faydalıdır. Beləliklə, milli şüur millətə, xalqa aid xüsusiyyətləri hər hansı bir fərdin özündə cəmləşdirmək bacarığıdır. Milli şüur insanın hisslərinin, milli səviyyədə əxz olunmasıdır. Burada vicdan, milli mənlik önəmli rol oynayır. Vicdanı olan hər bir vətəndaş doğulduğu torpağın qədrini bilməli, onun təbii sərvətlərini qorumalı və mühafizə etməlidir. Milli şüurun formalaşmasında xalqın tarixi, onun görkəmli mütəfəkkir və tarixi şəxsiyyətləri, digər milli atributlar güclü təsirə malikdir. Milli mənlik şüuru sayəsində millət, xalq və etnik qruplar tarixi inkişaf xüsusiyyətlərini, sosial-etnik cəhətləri bütün dolğunluğu ilə dərk edirlər. Milli mənlik şüuru, vəzifəsindən, tutduğu mövqeyindən asılı olmayaraq, hər bir vətəndaşa xas olan keyfiyyətdir. Milli mənlik şüuru ictimai şüurun bir hissəsi kimi çıxış edir və hər bir şəxsin daxili xarakterini, insanlara, cəmiyyətə olan münasibətini əks etdirir.

Yazı Azərbaycan Respublikası Prezidenti yanında KİV-in İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap edilmişdir